AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# BƏDİİ ƏDƏBİYYATDA ARTIQ ADAM PROBLEMİ

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

İddiaçı: **Nərminə Nazim qızı Hüseynova**

Filologiya üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Tahirə Qəşəm qızı Məmməd**

Rəsmi opponentlər: filologiya elmləri doktoru
**Rəhim Nadir oğlu Əliyev**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səbinə Yelmar qızı Tarverdiyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Yeganə Atamoğlan qızı Abdullayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: ________ akademik, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının
Elmi katibi: ________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: ________ filologiya elmləri doktoru, professor
**Məmməd İrəc oğlu Əliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi** Ədəbiyyatda artıq adam obrazı müəyyən qəhrəman qurupunu təmsil edən və özünəməxsus cizgiləri formalaşan komponent kimi təmsil olunduğundan o, ədəbi tipajlar seriyasına daxildir. Ədəbi tipaj tək-tək qəhrəmanları deyil, funksional məzmunda onları ümumi əlamətlər ətrafında birləşdirən bədii mövcudluğu təmsil edir. Bu mənada, ədəbiyyatda ortaq cəhətləri paylaşmalarına görə planetar mövcudluqlar kimi seçilən fərqli tipajlar mövcuddur: kiçik adam, artıq adam, müdrik qoca, sənətkar, fırıldaqçı ruhani, milli ziyalı, zavallı qadın və s. Bu tipajlar ədəbiyyatın ayrın ayrı-ayrı mərhələlərində hakim olan ideallar və poetika xüsusiyyətlərinə uyğun olaraq dominantlıq qazanır.

Ədəbiyyatşünaslığımızda tipajlar adətən ədəbi qəhrəmanlar kimi öyrənilmişdir. Lakin bu, bir qədər qeyri-dəqiq ifadədir. Tipaj tiplərin və qəhrəmanların ortaq xarakterik cizgilərini özündə əks etdirir. Dissertasiyanın aktuallığını şərtləndirən məsələlərdən biri bu problemə aydınlıq gətirilməsi ilə bağlıdır. Bundan başqa, aktuallığı şərtləndirən ikinci və ən əsas cəhət ədəbiyyatşünaslığımızada tənqidi realizmin aparıcı tipajlarından biri olan artıq adamdan çox az bəhs edilməsi və bu sahədə aydın elmi təsəvvürün olmamasıdır. Azərbaycan elmi-nəzəri fikirində kiçik adam və artıq adamdan bəhs edilsə də, onların ortaq və fərqli cizgiləri müəyyənləşdirilməmişdir. Artıq adam obrazının formalaşmasında rus ədəbiyyatının təsiredici rolu və həmin ədəbiyyatda onun tiplərinin formalaşması məsələsi haqda da Azərbaycan ədəbiyyatşünaslığında lazımi təsəvvür yoxdur.

Artıq adam tipajı öz mükəmməl modelinə görə XIX əsr rus ədəbiyyatının dünya ədəbiyyatına uğurlu töhfəsidir. Bu modelin başlıca strukturu qorunmaqla onun milli ədəbiyyatlarda yeni təzahür şəkilləri formalaşdırılmışdır. Azərbaycan ədəbiyyatında bu prosesin nə cür getdiyinə, fərqli artıq adam tiplərinə aydınlıq gətirmək üçün tədqiqata ehtiyac yaranmışdır.

Yuxarıda göstərilənlər nəzərə alınaraq "Ədəbiyyatda artıq adam" dissertasiya mövzusu kimi seçilmiş və tədqiq edilmişdir.

Terminin Azərbaycanda ədəbiyyatşünaslıq dövriyyəsinə girməsi akademik Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. O, üçcildlik "XIX əsr rus ədəbiyyatı" dərsliklərində ədəbi qəhrəmanların təhlili zamanı həmin termindən bir neçə dəfə məzmuna uyğun istifadə etmişdir. Bundan başqa, akademikin "Get dolanginən, xainsən hələ..." adlı dram əsərində də ədəbi qəhrəmanların dialoqlarında ironik məqsədlə "artıq adam" ifadəsindən istifadə olunur[1]. "Artıq adam" adı ilə olmasa da, "qəribə adamlar" ifadəsi ilə həmin məzmunun nəzərdə tutulmasına Məsud Əlioğlunun əsərlərində də rast gəlirik[2]. Daha sonra Yaşar Qarayev, İsa Həbibbəyli, Məmməd Qocayev, Rəhilə Quliyeva, Tahirə Məmməd və b. həmin terminə ayrı-ayrı qəhrəmanların xarakterizəsi və ya tənqidi realizmdə obraz quruplarının mövcudluğunu göstərmək məqsədilə müraciət etmişlər. Lakin problem heç vaxt ayrıca tədqiqat predmeti kimi seçilməmişdir.

"Artıq adam"ın ilkin modeli Qriboyedovun "Ağıldan bəla" komediyasının qəhrəmanı Çatski hesab olunsa da, onun tam təkmil nümunəsi A.S. Puşkinin "Yevgeni Onegin" mənzum romanının eyniadlı qəhrəmanı sayılır. Onlar bu qəhrəmanları yaratsalar da, onu artıq adam adlandırmamışdılar. "Artıq adam" ifadəsinin formalaşmasında Panayevin "Qohumlar"[3] romanı, Turgenevin "Artıq adamın gündəliyi"[4] povesti mühüm rol oynamışdır. Bu tip qəhrəmanların təhlili və dəyərləndirilməsi isə XIX əsr rus ədəbiyyatşünaslığında Belinski, Gertsen və Dobrolyubovdan başlayır. Onların, xüsusən Belinskinin[5] təhlilləri artıq adam obrazının nəzəri-tənqidi dəyərləndirilməsi ənənəsinin əsasını qoymuşdur.

---

[1] Cəfərov, M.C. Get dolangilən xainsən hələ / M.C.Cəfərov. – Bakı: Elm və təhsil, – 2017.

[2] Əlioğlu, M. Ə. Darıxan adamlar. (Seçilmiş əsərləri) / M.Əlioğlu. – Bakı: Təhsil, – 2018.

[3] Панаев Иван Иванович. Родственники az.lib.ru/p/panaew_i_i/text_0100.shtml - 2016- Lib.ru/Классика

[4] Тургенев, И. С. - Дневник лишнего человека читать онлайн -2017- https://libking.ru › Книги › Проза › Русская классическая проза

[5] Белинский Виссарион Гргорьевич. "Горе от ума ...az.lib.ru/ b/ belinskij_ w_g/text_0020.shtml - 2018- Lib.ru/Классика

XIX əsr ənənələrini davam etdirən müasir rus ədəbiyyatşünaslığında da artıq adam haqda tədqiqatlar davam etdirilməkdədir. V.Tixomirov[6], Z.Orlova[7], M.Epşteyn[8], D.Fedorov[9] və XIX əsr rus ədəbiyyatının, əksər tədqiqatçıları həmin problemi bu və ya digər səviyyədə araşdırmışlar. Bu tədqiqatlardan Belarusiya Dövlət Universitetinin Rus ədəbiyyatı kafedrasında D.Fedorovun "Artıq adam rus ədəbiyyatının ədəbi tipi kimi" mövzusunda məqaləsi problemə yeni baxış sərgiləməsi ilə fərqlənir. Rus ədəbiyyatşünaslığı ənənələri bu sahədə hər nə qədər həlledici rol oynasa da, o Azərbaycan ədəbiyyatının gerçəklərini və özünəməxsusluqlarını göstərə biləcək bir model təqdim edə bilməz.

**Tədqiqatın məqsəd və vəzifələri:** Ədəbiyyatda artıq adam tipajının nəzəri prinsipləri haqda dolğun elmi təsəvvür yaratmaq, onun təşəkkül və təkamül prinsipinə, təsnifatına tarixi-tipoloji istiqamətdə aydınlıq gətirmək tədqiqatın əsas məqsədidir. Bu məqsədin yerinə yetirilməsi üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Artıq adam obrazının xarakterik xüsusiyyətlərinə bədii mətn faktları ilə aydınlıq gətirmək;
- Artıq adamın kiçik adamla tipoloji müqayisəsi yolu ilə onları bir-birinə yaxınlaşdıran və uzaqlaşdıran cəhətləri üzə çıxarmaq;
- Obrazın formalaşmasında mühit və psixoloji amillərin təsiri məsələsini araşdırmaq;
- Bədii və elmi ədəbiyyat nümunələrinin təhlili ilə XIX əsr rus ədəbiyyatında artıq adam obrazının təşəkkül və təkamülü, təsnifatı problemləri haqda dolğun təsəvvür yaratmaq;

---

[6] Тихомиров В.Н., «Лишние люди» в произведениях И.С.Тургенева и А.П.Чехова. Вісник Запорізького національного університету, – 2010. №1, – с.83-94

[7] Орлова З. Тема лишнего человека в русской литературе ... proza.ru › 2014/06/04

[8] Эпштейн М. Маленький человек в футляре: синдром Башмачкина-Беликова. magazines.russ.ru/voplit/2005/6/ep7-pr.html

[9] Федоров Д.В. «Лишний человек» как вечный тип русской литературы.doc, 83 kB, Microsoft ...автор: ДВ Федоров ·elib.bsu.by › handle - 2002

- Azərbaycan ədəbiyyatında artıq adam obrazının milli qaynaqlarını – folklor və divan ədəbiyyatı ənənələrini, maarifçi ziyalı obrazını tədqiq etmək;

- XX əsrin ilk onillikləri Azərbaycan ədəbiyyatında, xüsusən tənqidi realizm cərəyanında artıq adam obrazının təsnifatını aparmaq;

- 60-cı illər Azərbaycan ədəbiyyatında artıq adam probleminə diqqət yönəltmək, qəribə adam və ədəbiyyatda faciəviliyi ehtiva edən qəhrəmanları artıq adam tipajlarının daşıyıcıları kimi xarakterizə etmək;

- Müstəqillik dövrü ədəbiyyatımızda artıq adam obrazının yeni təzahürlərinə diqqət yönəltmək.

**Tədqiqat metodları.** Dissertasiya işində müqayisəli-tarixi, müqayisəli-tipoloji, müqayisəli-genetik, təhlil və tərkib, sistemləşdirmə, induksiya və deduksiya metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində əsasən aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Artıq adam obrazının əsas xüsusiyyəti mühit və qəhrəman arasında, eyni zamanda, qəhrəmanın daxili düşüncələrində yaşanan konfliktdən törəyir.

- Artıq adam obrazının təşəkkülündə folklor və klassik ədəbiyyat ənənələri qaynaq kimi iştirak etmişdir;

- XX əsrin ilk onilliklərində tənqidi realizmlə ədəbiyyatımızda mükəmməl nümunələri yaranan artıq adam obrazına milli ədəbiyyatda ən yaxın tipajlar maarifçi ziyalılardır;

- Tədqiq edilən ədəbi tipaj dövrlərin və milli ədəbi mühitlərin dəyişilməsi ilə obrazın sabit prinsiplərini yaşatmaqla bərabər, eyni zamanda, fərqliliklər qazanmışdır;

- Azərbaycan ədəbiyyatına tənqidi realizmlə gələn artıq adamlar XX əsrin 60-cılarının yaradıcılığı ilə yeni həyat qazandı; İlyas Əfəndiyevin, İsa Hüseynovun yaradıcılıqlarının "qəribə adamlar"ı 70-ci illərdən yeni tipli artıq adamların formalaşmasına yol açdı. Anarın, Elçinin yaradıcılığı bu sahədə xüsusilə fərqlənir. Həmin müəlliflərin müstəqillik dövrü yaradıcılığında da bu xətt davam etdirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın əsas obyekti artıq adam problemi, onun yaradıcılıqda və nəzəriyyədə mövcud olan

parametrləridir. Tədqiqat predmeti isə rus ədəbiyyatında ənənəni formalaşdıran əsərlər, Azərbaycan ədəbiyyatında artıq adam obrazının qaynaqları, nümunələri və mərhələləridir.

**Dissertasiyanın elmi yeniliyi.** Mövzu milli ədəbiyyat faktları nəzərə alınaraq rus ədəbiyyatı ilə müqayisəli şəkildə ilk dəfə öyrənilmişdir. Tədqiqatda əsasən aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Rus ədəbiyyatının artıq adam obrazının geniş tip təsnifatı Azərbaycan ədəbiyyat faktları ilə müqayisəyə cəlb olunmuşdur;
- Artıq adam obrazının yaranmasında psixoloji sindromlar mühit problemləri ilə birlikdə araşdırılmışdır;
- Artıq adam ədəbiyyatın tipajlar sistemində kiçik adamla müqayisəli araşdırılmış (rus və Azərbaycan ədəbiyyat nümunələri əsasında) və onların hər birinin ayrı-ayrılıqda daşıdığı bədii-estetik funksiya aydınlaşdırılmışdır;
- Artıq adam obrazı kompleks tədqiq olunmuş, onun milli ədəbiyyatımızdakı qaynaqları – folklor, divan ədəbiyyatı, maarifçi realizm müqayisəli şəkildə öyrənilmişdir; folklorun keçəl, təlxək obrazları, sufizmin cəmiyyətdən qaçan aşiqi ilə artıq adam arasında müəyyən paralelliklər üzə çıxarılmışdır;
- XIX əsr Azərbaycan ədəbiyyatının maarifçi-ziyalı qəhrəmanları artıq adam obrazının ən yaxın sələfi kimi götürülmüş, onlar arasında varis-irs məsələsinə aydınlıq gətirilmişdir;
- Artıq adam obrazının Azərbaycan ədəbiyyatında təkamül dövrü kimi XX əsrin ilk onilliklərin götürülməsi doğru qəbul edilmiş, tədqiqatda əsaslandırılmış və obrazın həmin mərhələyə uyğun təsnifatı aparılmışdır;
- İlk dəfə olaraq artıq adam obrazının Azərbaycan ədəbiyyatında varlığının hüdudları genişləndirilmiş, 60-cı illərin modernist təmayülü daxilində tipajın daşıyıcıları aşkarlanmışdır; "qəribə adam" kimi səciyyiləndirilən həmin qəhrəmanların İlyas Əfəndiyev və İsa Hüseynovun yaradıcılığı əsasında təsnifatı aparılmışdır;
- 60-cı illərin davamında sovet dövründə artıq adam obrazlarından bəhs edilmiş, Anarın və Elçinin yaradıcılığı həmin aspektdən araşdırılmışdır;

- Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında artıq adam obrazınının bədii-estetik funksiyası araşdırılıb, ona aid nümunələr üzərində tədqiqat aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Ədəbiyyatda artıq adam obrazının təyinedici prinsiplərinin müqayisəli aspektdə və tarixi poetika istiqamətində tədqiqi bir sıra nəzəri məsələlərin aydınlaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Tədqiqatın nəticələrindən ədəbi tipaj, fərqli ədəbi cərəyanlarda artıq adam obrazının təzahürü, ədəbiyyatımızda genetik fasiləsizlik, rus ədəbiyyatı ilə tipoloji müqayisələr, ədəbiyyatlararası inteqrasiya, ədəbi təsir, ədəbiyyat və psixologiya, ədəbiyyat və tarix və s. kimi nəzəri problemlərin öyrənilməsində istifadə etmək olar. Tədqiqat işinə ədəbiyyat nəzəriyyəsi və ədəbiyyat tarixi, komprativistika fənlərinin tədrisi prosesində müraciət oluna bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi:** İşin əsas müddəaları müxtəlif elmi məcmuələrdə və beynəlxalq konfransların materiallarında dərc olunmuş elmi məqalə və məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Tədqiqat işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu:** Giriş, üç fəsil – fəsillərin bölündüyü müvafiq paraqraflar, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olan tədqiqat işinin girişinin həcmi – 12210, birinci fəsil – 93542, ikinci fəsil – 82073, üçüncü fəsil – 58301, nəticə hissəsi –3410 işarədən ibarətdir.

Tədqiqat işinin ümumi həcmi – 249536 işarədən ibarəıtdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş"ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, dissertasiyanın elmi yeniliyi, tədqiqat metodları, obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası, strukturu AAK-ın tələblərinə uyğun şəkildə göstərilmişdir.

**"Artıq adam ədəbi tipaj kimi: təşəkkülü və formalaşmasına təsir edən başlıca amillər"** adlı I fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"Kiçik adamla tipoloji müqayisədə artıq adam obrazının təyinedici xüsussiyyətləri"** adlanır.

Artıq adamın kiçik adama bənzərliyi cəmiyyətdə özünü lazımi səviyyədə reallaşdıra bilməməsi ilə bağlıdır. Lakin kiçik adam artıq adamdan fərqli olaraq hansı potensiala malik olub olmamasına baxmayaraq cəmiyyətin ona təyin etdiyi yerlə razılaşmış vəziyyətdədir. Onun özünəxas norma və streotipləri var, onlara əməl etməklə daxili rahatlıq tapır.

Kiçik adam və artıq adam obrazlarının yaranmasında, eləcə də tənqidi realizmin inkişafında XIX əsr rus ədəbiyyatının müstəsna rolu olmuşdur. Hətta bu tip obrazlar Azərbaycan müəlliflərinin diqqətini o dərəcədə cəlb etmişdir ki, onların bənzərlərini yaradıcılığa gətirməklə nəzirə-hekayələr də yazmışlar. Buna nümunə olaraq Əli bəy Hüseynzadə və Abbas Səhhətin iqtibas hekayələrini göstərə bilərik. Əli bəy Hüseynzadə A.P.Çexovun "Qılaflı adam" hekayəsinə iqtibas kimi "Əbdi-qılaf və məhfəzə"[10] əsərini yazmışdır. Abbas Səhhət isə özünün "Cərrahlıq"[11] hekayəsini 1915-ci il "Məktəb" jurnalının 6-7-ci saylarında çap etdirərkən başlıqda yazmışdır.

Rus ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da kiçik adam obrazının əsasən iki tipi ilə qarşılaşırıq: a) cəfakeş, saf qəlbli olanlar; b) avamlığından, kiçik şeyləri böyütmələrindən, xırdaçı davranışlarından həm özlərinə, həm də başqalarına problem yaradanlar.

---

[10] Hüseynzadə, Ə.H. Seçilmiş əsərləri. [İki cilddə] / Ə.Hüseynzadə. – Bakı: Çaşıoğlu, – c.2. – 2008. – s. 47-72

[11] Səhhət, A. Seçilmiş əsərləri: [2 cilddə] / A.Səhhət - Bakı: "Lider", – c.1. – 2005. – s. 185-190

Kiçik adam obrazının formalaşmasında rus ədəbiyyatının rolu nəzərə alınaraq dissertasiyada Puşkinin, Qoqolun, Çexovun, Mirzə Cəlilin kiçik adam obrazları müqayisəli təhlil olunur, təsnifatlar aparılır və artıq adamın bu tipajla müqayisədə fəqli xüsusiyyətləri əsaslandırılır.

Ədəbiyyatşünaslıqda C.Məmmədquluzadə yaradıcılığında kiçik adam problemindən bəhs edərkən ilk adı çəkilən qəhrəmanlar adətən Məhəmmədhəsən əmi və Novruzəli olur. "*Kiçik adam – mollanəsrəddinçi ədəbiyyatın böyük qəhrmanıdır. Kiçik adamın timsalında xalq faktorunu ədəbiyyata və mətbuata gətirmək və onu müdafiə etmək mollanəsrəddinçiliyin təməl şərtlərindədir.*

*Məhəmmədhəsən əmi kiçik adamın böyük ədəbiyyatdakı "bir yüngülvari müqəddiməsi", Novruzəli isə yeni dövr Azərbaycan ədəbiyyatında kiçik adamın gerçək əhvalatıdır*"[12].

Cəlil Məmmədquluzadə yaradıcılığında kiçik adamların toplu, kütləvi obrazı da mövcuddur. Bu baxımdan "Qurbanəli bəy" hekayəsində naçalnikin qonaq gəldiyi pristavın pəncərəsi qarşısında "urra" deyib papaqlarını göyə atan, yallı gedən kəndlilər kiçik adamların kütləvi obrazı kimi yaradılmışdır.

Kiçik adamdan fərqli olaraq artıq adam özü öz vəziyyətinin və imkanlarının fərqindədir. Lakin o, övladı (başqa bir deyişlə məhsulu, yetişdirməsi) olduğu mühitin şərtləri içərisində potensial imkanlarını gercəkləşdirə bilmir. Kiçik adam sadəlöhv şəkildə olsa da, cəmiyyətlə ünsiyyətə girir. Artıq adam isə mühitdən get-gedə uzaqlaşır və təsəllini hər hansı aludəçilikdə və ya alışqanlıqda tapır.

I fəslin ikinci paraqrafı **"Artıq adam tipajının sosial-psixoloji xarakteristikası"** adlanır. Artıq adam həm dəyişən mühit, həm də dəyişən insan münasibətlərinə qarşı dözümsüzdür; dəyişkənlik qarşısında özünün normal davranışlarını itirir, artıq adam statusu qazanır, fərqlənir və onu yetişdirən mühitin izlərini, kodunu üstündə daşımaqla bərabər, ona qarşı çevrilir.

---

[12] Həbibbəyli, İ. Ə. Mollanəsrəddinçilik təlimi və müasirlik // Azərbaycan qəzeti. – 2009, 7 aprel.

Artıq adam obrazı adətən cəmiyyətdə yıxıntıların bol olduğu dövrdən qidalanır. Bu mənada, onun XIX əsr rus ədəbiyyatında mükəmməl bir inkişaf yolu keçməsi təsadüfi deyil. XIX əsr Rusiya tarixində çarlıq ərazisi son dərəcə genişlənmiş, güclənmiş, aparılan müharibələrdə qazanılan sərvət hesabına öz həyat tərzi ilə fərqlənən yeni zəngin təbəqə meydana çıxmış, kapitalist münasibətləri inkişaf etməyə başlamış, eyni zamanda əsrin yarısından artıq bir dövrdə təhkimçiliyin davam etməsilə miskinlik və yoxsulluq da cəmiyyətdə kifayət qədər geniş yayılmış, Qərbə olan maraqla ənənələrdən qopmuş, cəmiyyətə yad insanlar çoxalmış və beləliklə də ziddiyyətli bir mühit formalaşmışdı.

Rus ədəbiyyatında olduğu kimi Azərbaycan ədəbiyyatında da artıq adam obrazının təkamül prosesi ciddi tarixi təlatümlər dövrünə təsadüf edir.

XIX əsr boyunca günahı özümüzün elm, texnika və maarif baxımından geridə qalmağımızda görən yazıçılarımız ədəbiyyatda yaratdıqları ziyalı obrazı ilə xalqı maarifləndirməyə çalışırdılar. Lakin XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiyada baş verən hadisələr xalqda xilasa ümid oyatdı və üsyan ruhu gücləndi. Üsyan insanlarda fərdi azadlıq, milli azadlıq idealları kimi təzahür etməyə başladı. Üsyan abhavası ədəbiyyatda artıq adam obrazının rol və funksiyasını artırdı.

Bu ədəbi qəhrəmanın içində olduğu mühitlə münasibətlərindəki patologiyalar öz qaynağını cəmiyyətlə bərabər, həm də şəxsin psixoloji şəxsiyyət pozuqluğundan alır.

Müasir psixologiya elmi daha da inkişaf etmiş, psixoloji xarakteristikada olan ciddi fərqlilik və özünəməxsusluqlar sindrom kimi qiymətləndirilərək insanlara fərdi yanaşmanın zəruriliyi ideyaları meydana gəlmişdir.Sindromlar ağırlaşdıqca fərqliliklərin şəxsiyyət pozuqluğundan qaynaqlandığı aydınlaşır. Ədəbiyyatdakı artıq adamlar, əsasən sindromların ağırlaşması vəziyyətindədirlər.

İstər həddindən artıq impulsivlik, istərsə də həddini aşmış passivlik olsun, diqqətlə yanaşıldıqda hər ikisi psixoloji sindrom daşıyıcılığı əlamətləridir. Mühitin vurduğu zərbələrdən qaynaqlanan şəxsiyyət pozuqluğu, xüsusən borderlayn kimi dəyərləndirilir.

Son vaxtlar ABŞ-da aparılan tədqiqatlar bu sindromun əhali arasında geniş yayıldığını göstərir. Hesabatlarda qeyd olunur ki, "Amerika Birləşmiş Ştatları vətəndaşlarının iki faizini və hətta bəzi təxminlərə görə 10-14 faizini öz təsirinə alan borderlayn xəstəliyi geniş yayılmışdır"[13].

Artıq adam tipləri bu və ya digər səviyyədə həmin sindromun daşıyıcılarıdır.

**"Artıq adam" tipajının formalaşmasında rus ədəbiyyatının rolu"** adlı üçüncü paraqrafda vurğulanır ki, bu tipaja dünya ədəbiyyatından bir çox nümunələr verilsə, tarixinin Şeksprin Hamletindən başladığı göstərilsə də[14], onun əsas münbit mühiti XIX əsr rus ədəbiyyatıdır.

Rus ədəbiyyatı üzərində aparılan tədqiqatlarda Oblomov, Yevgeni Onegin, Turgenevin bir sıra qəhrəmanları "artıq adam" kimi səciyyələnsə də, Puşkinin "şeir-roman" kimi dəyərləndirdiyi "Yevgeni Onegin"in eyniadlı qəhrəmanı, Lermontovun "Zəmanəmizin qəhrəmanları" əsərindən Peçorin, Qonçarovun "Oblomov" romanından Oblomovun üzərində daha çox dayanılmışdır.

Puşkinin Yevgeni Onegini daxili gücünü reallaşdırmağın çətinliyini yaşayır, cəmiyyətlə "iplərini qıran" bu qəhrəman, hətta onun həyatının mənasını dəyişəcək, ona sevgi yaşadacaq Tatyana ilə əlaqələrini belə qura bilmir, ona qarşı hər iki münasibətində (sevgisinə cavab verməyəndə və aşiqliyini etirafda) uyğunsuz davranır. Ya cəmiyyətə qarışmaqda ifrata varıb əyləncə düşkünü olur, ya da ucqarlara qaçıb, cəmiyyətdən üz çevirir.

M.Y.Lermontovun "Zəmanəmizin qəhrəmanları" (1838-1840) əsərinin qəhrəmanı Peçorin Oneginlə oxşar mühitin övladı olsa da Lermontovun qəhrəmanı sonuna qədər enerjili və canlıdır, onda özünübərpa qabiliyyəti güclüdür.

Rus ədəbiyyatında artıq adam obrazlarının əsas təmsilçiləri liberal-ziyalı gənclərdir. Bu təbəqə məhz keçid dövründə yol axtaran,

---

[13] Psychologist Anywhere Anytime. –2017– comwww.psychologistanywhereanytime.com

[14] Тихомиров В.Н., «Лишние люди» в произведениях И. С. Тургенева и А.П.Чехова. Вісник Запорізького національного університету, – 2000. №1, – s.84.

lakin onu tapmaqda çətinlik çəkən narahat insanlardır. Bu axtarışlar bəzən hətta cəmiyyətin inkişafına xidmət edən proqramların, layihələrin gerçəkləşməsi cəhdlərində də özünü göstərir. Gertsenin "Kimdir müqəssir" (1846) romanındakı Beltov, C.Cabbarlının "Oqtay Eloğlu" faciəsindəki Oqtay kimi.

XIX əsr rus ədəbiyyatında artıq adam obrazının xarakteristikasının açılışında, ədəbiyyat tarixlərində bir o qədər də geniş yer tutmayan İvan İvanoviç Panayevin də yaradıcılığı mühüm rol oynamışdır. O, "Qohumlar" (1847)[15] romanında qəhrəmanının dili ilə, müəllif sözü kimi, artıq adamın səciyyəsini vermişdir.

Rus ədəbiyyatını artıq adam obrazları ilə zənginləşdirən yazıçılardan biri də İvan Sergeyeviç Turgenevdir. Bu ədəbi qəhrəmanların onun yaradıcılığından əvvəl də rus ədəbiyyatında olmasına baxmayaraq adının formalaşması yazıçının "Artıq adamın gündəliyi" (1849) povestindən başlamışdır.Turgenev təhkimçilik hüququna nifrət edirdi, onu obrazlı şəkildə "mənim düşmənim" adlandırırdı[16].

Rus ədəbiyyatının ən yadda qalan artıq adam obrazlarından biri öz xarakteri, həyat tərzi ilə oblamovçuluq məfhumunu formalaşdıran Oblomovdur. Qonçarovun "Oblomov" (1859) romanının tənbəl, hərəkət etmək belə istəməyən qəhrəmanını bu hala gətirən, cəmiyyətdən ayıran artıq adamın formalaşmasına təsir edən iki başlıca amil – qəhrəmanın mənəvi dünyası ilə konfliktdə olan sosial mühit və özünün psixoloji vəziyyətidir.

Azərbaycan ədəbiyyatının artıq adam obrazlarının yaranmasında öz tipoloji xüsusiyyətləri ilə iştirakına görə XIX əsr rus ədəbiyyatının həmin qəbildən olan qəhrəmanlarından gələn ənənənin nəzərə alınması vacib elmi əhəmiyyət kəsb edir.

---

[15] Панаев Иван Иванович. Родственники. az.lib.ru/p/panaew_i_i/text_0100.shtml - 2016- Lib.ru/Классика

[16] Cəfərov, M.C. XIX əsr rus ədəbiyyatı. [Üç cilddə] . M.C.Cəfərov. – Bakı: Maarif, – c.2. – 1970, s. 28-29

Birinci fəsildə aparılan tədqiqat əsasında gəlinən nəticələr Azərbaycanın və Rusiyanın aşağıda göstərilən nüfuzlu elmi jurnallarında çap etdirilmişdir[17],[18].

**"Azərbaycan ədəbiyyatında artıq adam obrazının qaynaqları, təşəkkül və təkamülü"** adlı ikinci fəsil üç paraqrafdan ibarətdir. **"Artıq adam" obrazının folklor qaynaqları"** adlanan birinci paraqrafda göstərilir ki, artıq adam öz mühitinin doğma (cəmiyyətə aid cizgiləri öz üzərində daşıması baxımından), həm də yad (cəmiyyətdə özünə layiq olduğu yeri tapa bilməməsi ilə) övladı olmasına baxmayaraq onun formalaşmasında, bədii strukturunun reallaşmasında ədəbi ənənənin, xüsusən də folklor ənənələrinin əsaslı təsiri var. Bu ənənə başlanğıcında, yuxarıda qeyd etdiyimiz kimi, təlxək və onunla yaxın funksiyanı yerinə yetirən və ya onun fərqli formalarda təzahürü sayılan Keçəl, Qaragöz, Məddah, müdrik lətifə qəhrəmanının və b. təsiri açıq görünməkdədir.

Təlxəyin oyunbazlığı onun qeyri-ciddi qəbul olunmasına yol açmaqla bərabər, saray kimi ciddi bir məkanda daima diqqət mərkəzində olmasına da imkan yaradır. Buna paralel olaraq artıq adamın da bir çox hallarda rast gəldiyimiz mənfi alışqanlığı və ya "psixoloji tutmaları" onu cəmiyyətin arzuolunmaz insanına çevirsə də, o, hadisələrin mərkəzində və insanların nəzər nöqtəsindədir. Məsələn, İskəndər şərab içir və dediyi doğru sözlərin də cəmiyyətə təsiri yoxdur, sayılmır. Bütün bunlara baxmayaraq əvvəldən-axıra hadisələrin mərkəzindədir.

Ədəbiyyatımızda təlxəyə ən yaxın olan obraz Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" əsərindəki Molla Abbasdır. Molla Abas əsərdə öz yerini yalnız özünü təlxəkliyə - yalandan dəliliyə qoyması ilə tapır.

Normaları pozmağa meyilli olan, məqsədə doğru öz bildiyi və ətrafdakıların ağılla düşündüyünə tərs gələn yolla gedən artıq adama

---

[17] Hüseynova, N.N. "Artıq adam" tipajının formalaşmasında Yevgeni Onegin və Peçorin obrazlarının rolu // – Bakı: Ədəbiyyat məcmuəsi. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, – c. XXI. – 2017, – s. 308-315

[18] Гусейнова Н. Н. Образы «маленького» человека и «лишнего» человека в литературе XIX века // Балтийский гуманитарный журнал, – т. 9. – 2020. – с.241-246

bu rəftarı ilə həm də məşhur lətifə qəhrəmanı Molla Nəsirəddin yaxındır.

Hər bir xalqın folklor ənənələri onun ədəbiyyatının yeni modellərinin və ədəbi qəhrəmanlarının formalaşmasında bu, ya digər səviyyədə iştirak edir. Bu mənada artıq adamda folklor ənənələrinin təsirini müəyyənləşdirmək, eyni zamanda, yeni təzahürlərdə milli ənənənin rolunun təyininə yardım edir.

İkinci fəslin ikinci paraqarfı **“Artıq adam obrazının formalaşmasında klassik Şərq ədəbiyyatı ənənələrinin rolu”** adlanır.

Artıq adamın tipoloji xüsusiyyətlərindən biri onun daxilən tənhalığı və cəmiyyətlə dil tapa bilməməsidir. Azərbaycan ədəbiyyatında qəhrəmanın cəmiyyətlə uyuşmazlığının özünəməxsus ənənələri və klassik qəhrəmanları var. Bu qəhrəmanların əsas aparıcı siması, heç şübhəsiz, Məcnundur.

Cəmiyyətdən qaçan, lakin aşiq olduğundan da əl çəkə bilməyən Aydın öz laübalı halı ilə divan ədəbiyyatının aşiqini xatırladır.

İskəndərin də, sərxoşluğu əslində cəmiyyətlə dil tapmamasını realizə edən aludəçiliklə bərabər, eyni zamanda sahib ola biləcəklərindən imtina və real mühitdən qaçış üsuludur.

Artıq adam cəmiyyətdən qaçışının yerini öz aludəçiliyi ilə doldurur. O, ya hansısa oyuna, ya ova, ya səyahətə, ya içkiyə, ya da döyüşə (bəzən də bunların hamısını birdən yaşayır) meyil salıb. Aludəçiliklə tənhalaşıb. Klassik Şərq ədəbiyyatının aşiqi dərd aludəsidir. O, üz çevirdiyi cəmiyyətdən daha çox dərdi sevir və Tanrıya üz tutub ondan dərd arzulayır, dərdi özünün davası, dərmanı hesab edir.

Divan ədəbiyyatında aşiq ağıldan imtina etməklə sanki rahatlaşır, məqsədə, ideala özünü daha yaxın hesab edir.

Azərbaycan ədəbiyyatının artıq adam tipajı isə idealı və özü arasında bir uçrum görür. Onu dərdə salan idealına çatma yollarını tapa bilməməsidir. Divan ədəbiyyatının aşiqi özünü qurban verdikcə idealına yaxınlaşır, qovuşma ümidi artır, artıq adam isə qurban getdikcə aradakı məsafə uzaqlaşır və qəhrəman ümidsizlik girdabına düşür.

Aparılan müqayisəli araşdırmadan belə nəticəyə gəlmək mümkündür ki, digər ədəbi komponentlər kimi, artıq adam tipajları da sabit

prinsiplərlə tanınmaqla bərabər, dəyişən mərhələ və ədəbiyyatlar onların özünə uyğun tipini formalaşdırır.

**"Artıq adam obrazının təşəkkülündə maarifçi-ziyalı obrazların təsiredici rolu"** adlanan üçüncü paraqarfda aparılan araşdırmadan belə məlum olur ki, maarifçi realizmin 70-90-cı illərinin ziyalı qəhrəmanları ilə artıq adam obrazı arasında qohumluq və paralellik daha çoxdur.

Yeni ziyalı qəhrəmanların yaradılmasının xronologiyasında ilkinlik Nəriman Nərimanovun "Nadanlıq" əsərinə aiddir. Aldığı təhsil və yeni dünyagörüşü ilə mühitin "ögey övladı" vəziyyətinə düşən Ömər öz istək və arzularında haqlı olsa da, cəmiyyət onu haqsız sayır.

Dramaturgiyada olduğu kimi, Azərbaycan nəsrində də ilk yeni tipli ziyalı obrazını Nəriman Nərimanov yaratmışdır. "Bahadır və Sona" romanının azərbaycanlı ziyalı qəhrəmanı Bahadırı ən çox narahat edən problem mənsub olduğu millətin digər millətlərdən geridə qalmasıdır; millət adı gələndə dərdə, qəmə batır *"Biçarə millət"* deyib, ah çəkir[19]. Bahadır bir ideoloqdur, o, mükəmməl bir maarifçilik proqramının müdafiəçisi kimi özünü göstərir.

XIX əsr Azərbaycan ədəbiyyatının ən yaddaqalan ziyalı qəhrəmanlarından biri də Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsinin qəhrəmanı Fəxrəddindir. Digər ziyalı ədəbi qəhrəmanlar kimi o da müəllif idealının daşıyıcısıdır, üzvü olduğu cəmiyyəti insanlığa yad görünən streotiplərdən xilas etməyə çalışır.

Yaradıcılığında folklor və klassik ədəbiyyat ənənələri müasir dünya ədəbiyyatı texnologiyası ilə uğurla əlaqələndirən Haqverdiyev ədəbiyyatşünaslıqda XIX əsrdən XX əsrə keçidi formalaşdıran bir sənətkar kimi dəyərləndirilir[20].

Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsinin qəhrəmanı Fərhad maarifçi-ziyalı tipi ilə artıq adam arasında keçid vəziyyətindədir.

---

[19] Nərimanov, N. N. Seçilmiş əsərləri. / N.Nərimanov. – Bakı: Lider Nəşriyyatı. – 2004, – s. 162.

[20] Bax: Məmməd, T.Q. (Tahirə Məmməd). XX əsr Azərbaycan dramaturgiyasının poetikası. / T.Məmməd. – Bakı: Elm, – 1999, – s. 58-62.

Maarifçi-ziyalı qəhrəmanlar mühitlə nə qədər ciddi problem yaşasalar da, onlarda psixoloji sindromlar, mənfi aludəçilik və cəmiyyətdən üz döndərmə halları yoxdur. Maarifçiliyin əsas prinsiplərindən biri insanlara, kütləyə yeni ideallar təqdim etmək idi. Ona görə də yeniləşmənin təmsilçisi artıq adam kimi yox, maarifçi-ziyalı ədəbi qəhrəman kimi yaradılırdı. Maarifçi-ziyalı, ideoloq qəhrəmanlar artıq adam obrazını yox, ona çox yaxın qaynağı formalaşdırır.

İkinci fəslin dördüncü paraqrafı **"XX əsrin ilk onillikləri Azərbaycan ədəbiyyatında artıq adam obrazının təkamülü və təsnifatı"** adlanır.

XX əsrin əvvəlləri ədəbiyyatımızda artıq adam obrazının özünütəsdiqi mərhələsi kimi səciyyələndirilə bilər.

İstər Cəlil Məmmədquluzadə, istərsə də Cəfər Cabbarlı öz doğma mühitlərinin "artıq adam"larını yaradırlar. Onların qəhrəmanlarını formalaşdıran XX əsrin başlanğıcının Azərbaycan mühitinin sosial-iqtisadi, siyasi şərtləri və cəmiyyətin daşıyıcısı olduğu streotiplərdir.

Daha əvvəldə də qeyd etmişdik ki, Azərbaycan ədəbiyyatında həm kiçik, həm də artıq adam obrazlarının tam formalaşması Cəlil Məmmədquluzadə yaradıcılığında gerçəkləşir. Kiçik adam ədibin nəsr yaradıcılığı, artıq adam isə dramaturgiyası üçün xarakterikdir.

Cəlil Məmmədquluzadənin yaradıcılığında iki tip artıq adam obrazı ilə rastlaşırıq: a) mühitin təzyiqi qarşısında faciəvi həyat və məcburi özgələşmə yaşayanlar ("Ölülər"də İskəndər, "Dəli yığıncağı"nda Molla Abbas); b) Yad təsirlər altında özgələşib, vaxtlarını lazımsız fəaliyytə həsr etdiklərindən gərəksiz vəziyyətə düşənlər ("Anamın kitabı"ndakı qardaşlar – Rüstəm, Məmmədəli, Səməd Vahid)

Azərbaycan ədəbiyyatında artıq adam obrazının parametrlərinə cavab verən ilk ədəbi qəhrəman İskəndərdir ("Ölülər", 1909).

İskəndər mühitlə uyuşmayan xarakteri, cəmiyyətdə özünə yer tapa bilməməsi, daxili tarazlığını itirməsi və araq aludəçiliyi ilə mübahisəsiz şəkildə artıq adam obrazı kimi səciyyələndirilə bilər. Onda maarifçi ziyalılara xas olan ideal daşıyıcılığı, aydın məfkurə yoxdur. Mühitə qarşı üsyanı, cəmiyyətdə yer tapa bilməməsi, çıxış yolu kimi özünə yaratdığı dünyanın sərhədlərini sərxoşluqla cızması İskəndəri

bir tipaj ifadəçisi kimi kiçik adamdan da ayırır. Bütün artıq adamlar kimi zərbəni həm cəmiyyətdən, mühitdən, həm də öz xarakterindən alır.

Cəmiyyətdəki qeyri-insani şəraitə görə məcburi özgələşmə yaşayan Molla Abbas ("Dəli yığıncağı" 1927) Azərbaycan dramaturgiyasının yadda qalan, uğurlu qəhrəmanlarından biridir. O, mənəvi sığınacağı başqa artıq adamlarda rastlaşdığımız mənfi aludəçilik, eşqbazlıq, səyahət və döyüş səhnələrində axtarmır. Onun seçdiyi yol orijinaldır və Cəlil Məmmədquluzadənin artıq adam obrazına qatdığı yeni rəngdir.

Cəlil Məmmədquluzadə dramaturgiyasında ikinci tip – yəni, yad təsirlər nəticəsində özgələşən, potensialını mənasız işlərə həsr edən artıq adam obrazlarına "Anamın kitabı" (1919) əsərində rast gəlirik. Bu əsərdə doğma mühitə, ailəyə yadlaşan üç qardaş – Rüstəm, Mirzə Məhəmmədəli, Səməd Vahidin yadlaşmada məruz qaldıqları mühit şərtləri əsərdə diqqəti cəlb edəcək səviyyədə yer almır. Onlarda üsyankar ruh da yoxdur. Əksinə, göründükləri mühitdə - ailədə gərginlik yaradır və etiraza səbəb olurlar. Belə olduğu halda, qardaşları artıq adam kimi səciyyələndirmək bir qədər mübahisəli səslənir. Lakin Cəlil Məmmədquluzadə yaradıcılığında qəhrəmanların təqdimi zamanı deyilən sözlər qədər, bəlkə ondan da artıq, eyham və işarələrdən, model stiuasiyalardan istifadəni nəzərə alaraq həmin obrazların səciyyələndirilməsi mümkündür.

Aid olduqları məkana yad libaslarla gələn, soyadlarını yad normalara uyğun bəyan edən bu üç kişi özgələşənə qədər kənar mühitdə bəlli bir zaman keçiriblər. Onların gətirdikləri komplekslər ailə-cəmiyyət kompleksləri ilə uyuşmur və toqquşur. Həmin qarşılaşmada isə bəlli bir potensiala malik olan kişilər mühitin gərəksiz, artıq adamları kimi qəbul olunurlar.

Azərbaycan ədəbiyyatında artıq adam obrazının təkamül və təsdiqində Cəfər Cabbarlı yaradıcılığının da özünəməxsus yeri var.

Ddramaturqun "artıq adam" kimi dəyərləndirilə biləcək qəhrəmanları - Aydın və Oqtay Eloğlu bu obrazların təsnifatında fərqli və yeni bir tipi formalaşdırırlar. Onlar romantik xarakterli artıq adamlardır. Baxmayaraq ki, hər iki qəhrəman böyük məqsəd və arzu

sahibidirlər, lakin cəmiyyətdə yer tapa bilməməyin acısını yaşayırlar; biri "gic", digəri isə "səfil" adını qazanır. Nə məqsədlərini həyata keçirə bilirlər, nə də özləri xoşbəxt olurlar.

Aydını onu uşaqlıqdan tanıyan dostu Surxayın dili ilə müəllif bir neçə cümlədə belə səciyyələndirir: "...O qədər dərin düşüncəli, o qədər alıcı idi ki, yazıq oxuya bilsəydi... Nə etmək ki, bir yandan başındakı böyük, fəqət bulanıq fikirlər, bir yandan ehtiyac, zəiflik, xəstəlik, sonra da bu hadisə (Gültəkinin onu xilas etmək üçün Dövlət bəyin məşuquna çevrilməsi – N.H.), xüsusən içki..."[21]. Yuxarıda "artıq adam"ı xarakterizəsinə aid qeyd etdiyimiz bütün əsas əlamətlər bu təqdimatda öz əksini tapmışdır.

Aydın kimi, Oqtay da istedadlı və öz istedadını göstərə bilməyən, idealları reallaşmayan qəhrəmandır. Millət, Vətən aşiqliyini bir "məcnun" kimi yaşayır. Uyğunsuz mühit onu anlamır, təzyiqlər edir.

Cəfər Cabbarlının qəhrəmanları - istər Aydın, istərsə də Oqtay öz çılğınlıqları, aşiqlikləri, dəyanətləri ilə (bu psixoloji sarsıntılarla müşaiyət olunsa belə) həm ədəbiyyat ənənələrimiz, həm də dramaturqun öz fərdi yaradıcılıq üslubunun  səciyyəvi əlamətlərini daşıyır.  Bu səciyyəvilik isə onların aid olduqları tipaj sistemində fərqliliklərini, özünəməxsusluqlarını təmin edir.

Yuxarıdakı araşdırma əsasında XX əsrin başlanğıcı Azərbaycan ədəbiyyatında artıq adam obrazının iki prinsip əsasında təsnifatı mümkündür: 1) psixoloyi xarakteristikanın  məzmununa; 2) yaradıcılıq metodu və üsluba görə.

Hər  tip özü də ayrı-ayrılıqda iki yerə ayrılır. Birinci tip: a) mühitin uyğunsuzluğu,  ağır təzyiqi və qəhrəmanın psixoloji xarakterindən yararlanan səbəblər  nəticəsində şəxsin potensial enerjisinin fərdin və cəmiyyətin zərərinə yönəlməsi. Buna misal olaraq İskəndər, Molla Abbas, Aydın və Oqtay Eloğlunu göstərə bilərik. Əlverişsiz şərtlərin təsiri ilə güclü potensiala malik qəhrəmanlar sərxoşa, dəliyə, gicə və

---

[21] Cabbarlı, C. Əsərləri: [4 clddə] / C. Cabbarl. – Bakı: Şərq-Qərb, – c.2. – 2005, – s. 227.

səfehə çevrilirlər. b) Yad mühit və yad təhsil nəticəsində doğma mühitə özgələşib faydasız, artıq hala gələnlər. Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid isə bu qrupun parlaq təmsilçiləridirlər.

İkinci tipin ayrıldığı quruplar: a) realist metod və realist üslubda təqdim olunan qəhrəmanlar. Bu qrupa Cəlil Məmmədquluzadənin artıq adam obrazları aiddir. b) qarışıq metodda (realist-romantik) və romantik üslubda özünüifadə edən obrazlar. Aydın, Oqtay Eloğlu bu, ikinci qrupda təmsil olunurlar.

Bu fəsildə alınan elmi nəticələr ölkəmizdə və xaricdə (Rusiya, Türkiyə) nüfuzlu nəşrlərdə aşağıda qeyd olunan məqalə və məruzələr halında çap edilmişdir [22],[23],[24], [25],[26].

"**60-cı illər və müstəqillik dövrü Azərbaycan ədəbiyyatında artıq adam problemi**" adlı üçüncü fəsil problemin qoyuluşuna uyğun olaraq iki paraqrafa ayrılır. Birinci paraqraf **"60-cı illər Azərbaycan ədəbiyyatında artıq adam obrazının daşıyıcıları – "qəribə adam"lar"** adlanır.

Artıq adam obrazının daşıyıcılarını əsasən iki istiqamətdə qruplaşdırmaq olar: A) Onlar psixologiyaları və anlaşa bilmədikləri insanlarla qarşılaşdığı çətinliklərə görə artıq adamlara çox yaxın olsalar da, hadisələrin inkişafında münasibət dəyişmələri ilə cəmiyyətin içinə

---

[22] Hüseynova, N.N. Azərbaycan ədəbiyyatında təlxək obrazı və onun tarixi mənşəyi. Təkrarlanan mədəniyyətlərdə prototiplər və ya mədəniyyət genomları // "Müqayisəli ədəbiyyat və mədəniyyət" VII beynəlxalq elmi konfransının tezisləri. Azərbaycan komprativ ədəbiyyat assosasiyası və Xəzər Universiteti. – Bakı: – 20-21 aprel, – 2017, – s. 26.

[23] Hüseynova, N.N. "Artıq adam" obrazının folklor qaynaqları // AMEA Xəbərləri, Humanitar elmlər seriyası, – Bakı: – 2018. – № 1, – s. 82-86

[24] Гусейнова Н.Н. Роль традиций классической восточной литературы в формировании образа «лишнего человека» // Вестник Гуманитарные науки. Дагестанского Государственного Университета, – том 32, – 2017, – с. 40-47.

[25] Hüseynova, N.N. Cəfər Cabbarlı dramaturgiyasında artıq adam obrazı // Poetika.İzm, – 2017. № 3, – s. 162-168.

[26] Hüseynova, N.N. Cəlil Məmmədquluzadə dramaturgiyasında artıq adam obrazı // Türkiyə Qafqaz Universitetində 15 dekabr 2019-cu il tarixdə keçirilən "Elm və təhsilin aktual problemləri" beynəlxalq konfransının materialları. – Qars, – Türkiyə, – 2019, – s.87-95.

doğru irəliləyir və problem zəifləyirdi. Beləliklə də, ənənəvi artıq adamlardan fərqlənirdilər (çox vaxt da süni şəkildə). B) Mühitin qəbul etmədiyi, eyni zamanda cəmiyyətdən üz döndərən, lakin hər hansı bir gizli tərəfinin saxlandığı, sonunacan açılmayan qəhrəmanlar.

"Qəribə adam" ifadəsi XIX əsr rus ədəbiyyatının artıq adam obrazlarını xarakterizə edərkən artıq adam istilahının sinonimi kimi yaranmış və bəzi hallarda onunla paralel işlənmişdir[27].

Qəribə adam bir ədəbi qəhrəman kimi həm artıq adamın sinonimi, həm də 60-cı illər ədəbiyyatında mühitlə qarşıdurmada formalaşan təklənmiş insanları bildirmək üçün istifadə olunmuşdur.

İlyas Əfəndiyev hələ ilk hekayələrindən öz davranışları ilə başqalarından çox seçilən, qəribəlik təəssüratı oyadan obrazlar yaratmağa meyillidir. İlyas Əfəndiyev qəribə insanların tərəfindədir və onları təklənməyə qoymur, qarşılaşdıqları çətiniklərdən həmişə qalib çıxarır.

İlyas Əfəndiyevin qəhrəmanları əsasən sevməyi bacaran insanlardır. İnsan sevirsə, eyni zamanda, bütün varlığı ilə sevib, bir çox şeyləri adlayıb keçirsə, bizcə, o, xoşbəxt olmalıdır. İlyas Əfəndiyevin qəhrəmanları sevməyi bacarırlar, dərindən sevirlər, lakin xoşbəxt olmağı, demək olar ki, bacarmırlar. Yazıçı hər nə qədər onlar üçün təsəlli yeri – ictimai fəaliyyət, ağlın hökmünə iradəninin tabe olması və s. tapsa da, həmin obrazlar oxucuda və ya tamaşaçıda özlərinin xoşbəxtliyi haqda təsəvvür formalaşdıra bilmirlər. İ.Əfəndiyevin qəhrəmanları ümumi cəmiyyətin yox, tək-tək fərdlərin boşluqlarından əzab çəkən həssas ruhlu qəhrəmanlar kimi təqdim olunurlar. Ona görə də İ.Əfəndiyevin qəhrəmanları nə qədər artıq adam obrazlarının varisi kimi görünsələr də, tam artıq adam kimi xarakterizə oluna bilmirlər, onların genetik daşıyıcısı funksiyasını yerinə yetirirlər.

Mübariz fərd, qəribə adam obrazlarının yaranmasında İsa Hüseynov da öz əsərləri ilə diqqət cəlb edir. İsa Hüseynovun qəhrəmanını təqdim etdiyi mühit İlyas Əfəndiyevin qəhrəmanlarının qarşılaşdığı mühitdən daha mürəkkəb, ziddiyyətli və problemlidir. Bundan əlavə, İlyas Əfəndiyevin qəhrəmanlarının formalaşmasında çox aydın, bəlli

---

27 странные люди – Шукшин Василий – 2017 – https://www.e-reading.club/book.php?book=66385

sosio-psixoloji şərtlərin rol oynamasına baxmayaraq İsa Hüseynovun qəhrəmanlarını bu şərtlər daxilində qavramaq mümkün deyil. Onların bəzisinin az, bəzisinin isə çox olmaqla görünməyən, mistik səciyyəsi, kosmik bağı da var. Mistifikasiya artdıqca qəhrəmanı artıq adamla doğmalaşdıran genetik kodlar azalır. Lakin qəhrəmanlarda istər mistifikasiya, istərsə də reallıq güclü olsun, hər ikisi son dərəcə mürəkkəb mühitdə yaşamaq məcburiyyətindədirlər. Mühit qəribə adam formalaşdırmaq üçün əlverişli vəziyyətdədir. Qəribə adamlarda mistifikasiya və reallığın səviyyəsinə ayrı-ayrılıqda nümunə ola biləcək iki iki qəhrəmanı üzərində dayandıq – "Tütək səsi"ndə Cümrü,"Teleqram"da Zəlimxan.

Müharibədən sonra kənddə və ailədə baş verənlərə sarsılan Cümrü havalanıb, əlinə tütək alıb dama çıxır, küçədə dolaşıb camaata tütək paylayır ki, onlar da ona qoşulub çalsınlar, müharibəyə gedənlərə yas saxlasınlar. Cümrünün havalanıb təklənməsi və camaata tütək paylaması, gecələr gizlincə Tapdığın qaldığı tövləyə gəlməsi, Mehbalı əminin onun dəli olmadığını söyləməsi, eyni zamanda müəllifin də onun dəli olub olmaması haqda açıq qənaət ifadə etməməsi bu qəhrəmanın gizli tərəflərinə maraq oyadır.

"Teleqram" povestindəki Zəlimxan da həssas və doğruluq, ədalət tərəfdarıdır. İçində olduğu mühit, hətta ən yaxınları belə onun mənəvi aləminə yad mühiti formalaşdırırlar. Uşaqlıqdan ətrafdakılardan fərqlənən, aradabir gözlərində titrəyən qeyri-adi parıltı ilə Cümrünü xatırladan Zəlimxan, sonunacan öz soyuqqanlılığını və dəyanətini qoruyub saxlayır. Doğmalarının əhatəsində təklənən Zəlimxanın qəribəliyi öz yolundan dönməzliyi, güzəştsizliyi ilə bərabər, həm də onu təkləyənləri atıb getməməsindədir.

Üçüncü fəslin ikinci paraqrafında müstəqillik ərəfəsi və müstəqillik dövrü Azərbaycan ədəbiyyatında yaranan yeni tipli artıq adam obrazları Anar və Elçinin yaradıcılığı əsasında araşdırılır. Bu paraqraf **"Anar və Elçinin yaradıcılığında artıq adam problemi"** adlanır.

Anarın "Ağ liman" əsərindəki Məmməd Nəsir mühitlə münasibəti və öz xarakterik davranışına görə artıq adamdır. Cəmiyyətin itələdiyi bu söz və muğam xridarı, dəyişən bütün əlifbaları və orfoqrafiya

qaydalarını gözəl bilən Məmməd Nəsir, təsəllini ucuz şərabda və nərd oyununda tapır.

"Ağ liman"ın davamı olan "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndə isə artıq adam kimi diqqəti cəlb edən Təhminədir. Klassik artıq adam tipləri sırasında qadın yoxdur. Lakin 60-cılar ədəbi prosesində Azərbaycan ədəbiyyatında xarakterik qadın artıq adam tipləri ilə rastlaşırıq; potensial qabiliyyətini cəmiyyət və özünün psixoloji xüsusiyyətləri üzündən reallaşdıra bilməyən və qadın üçün bir o qədər də yaxşı cəhət sayılmayan aludəçilik ... Bu qadınlar sırasında Elçin Əfəndiyevin "Poçt şöbəsində xəyal" tragikomediyasının qadın qəhrəmanları – Ədilə, Gülzar, Züleyxa və Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanının Təhminəsi daha çox yadda qalır.

Artıq adam tipinin yarandığı ilk vaxtlar qadınların bu tipajda təqdimi bir qədər uyğunsuz idi. Cəmiyyət streotipləri diqqəti həmin qadınların daxili konfliktlərindən, psixoloji vəziyyətindən, cəmiyyətə müxalif mövqelərindən daha çox onların əxlaq normalarına yönəldirdi. Bu isə yazıçının həll edib, göstərmək istədiyi problemə əngəl yaradırdı. Lakin cəmiyyətdə qadının mövqeyi artdıqca onun ədəbiyyatdakı funksiya imkanları da genişləndi.

Təhminə və Məmməd Nəsirin bu ikihissəli əsərdə artıq adam ədəbi tipini təmsil etməsinə, onların "irsi" yaxınlığına ikinci hissənin sonunda müəllif özü diqqəti cəmləşdirir. Məmməd Nəsirlə söhbətində Zaur deyir ki, Təhminə onun gözünün qabağında 5 mərtəbəli binanın altıncı mərtəbəsinə qalxdı. Məmməd Nəsir Zaura inanır və deyir: *"Əgər adamlar başa düşsəydilər ki, beşmərtəbəli binanın altıncı mərtəbəsi də ola bilər, onda nə vardı ki..."*[28].

Anarın nəsrində yadda qalan artıq adam tiplərindən biri də "Macal" povestindəki Oqtaydır. O, cəmiyyətdən öz faydası üçün istifadə etməyi bacarmır, şəxsi həyatında da uğur qazanmır.

Azərbaycan ədəbiyyatında XX əsrin başlanğıcı üçün xarakterik olan artıq adam ədəbi qəhrəman tipi müstəqillik dövrü ədəbiyyatımızda yenə də özünəməxsus yer qazandı. Bu obrazın müasir mərhələdə

[28] Rzayev, A.R. (Anar) Əsərləri: [3 cilddə] / A.Rzayev. – Bakı: Nurlan, – c.2. – 2003. – s.381.

fəallaşması daha çox Elçin Əfəndiyevin yaradıcılığında, xüsusən dramaturgiyasında müşahidə olunur.

Elçinin dramaturgiyasında artıq adamın 60-cılar və postsovet dövrü üçün xarakterik olan dinamikanı izləmək baxımından onun hər iki mərhələyə aid dram əsərləri üzərində dayanmağı məqsədəuyğun hesab etdik. 1970-ci ildə qələmə aldığı “Poçt şöbəsində xəyal” tragikomediyası 60-cılar ədəbiyyatının artıq adam tipajlarının səciyyəvi xüsusiyyətlərini əks etdirməsi baxımından maraqlı əsərdir.

Müstəqillik dövrünün ilk illərində Elçinin yazdığı “Ordenli yazıçı ilə görüş” adlı fars-novellasında (12 dekabr 1989) daramaturqun yaratdığı Cəfər ağa obrazı bütün parametrləri ilə artıq adam tipajına uyğundur.

Elçinin absurd və psixoloji dramlarında birbaşa açıq tip görünməsə də, artıq adam üçün xarakterik cizgiləri nümayiş etdirən obrazlarla da rastlaşırıq.

Anarın, eləcə də Elçinin yaradıcılığından seçdiyimiz xarakterik nümunələr göstərir ki, artıq adam obrazı 60-cıların dinamik inkişafı nəticəsində yenidən ədəbiyyatımıza gəlir və 70-ci illərdə, daha sonra keçid dövründə onların bəlli bir yeri müəyyənləşir. Qəribə adamdan artıq adama keçid üzərində aparılan araşdırma həm də onu sübut edir ki, 60-cılar adı ilə gələn yeniliklər növbəti onilliklər üçün təməl rolu oynamaqla bərabər, heç də statik xarakter daşımır, inkişaf və yeniləşmə yaşayır.

Dissertasiyanın üçüncü fəslində geniş təhlili və təsnifatı aparılan bu qəhrəmanların yer aldığı əsərlər haqda məqalə və məruzələr çap olunmuşdur[29],[30],[31].

Tədqiqatın yekunları “Nəticə” də ümumiləşdirilmişdir.

---

[29] Hüseynova, N.N. Sovet ədəbiyyatında artıq adam obrazının daşıyıcıları – “qəribə adam”lar (İlyas Əfəndiyevin yaradıcılığı əsasında) // – Bakı: Poetika.İzm, – 2018. № 4, – s. 62-69

[30] Hüseynova, N.N. Elçinin dramaturgiyasında “artıq adam” obrazı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2018. № 1, – s. 109-114.

[31] Hüseynova, N.N. Anarın nəsrində artıq adam obrazı // Bakı Slavyan Universitetinin Ümumilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda IX Beynəlxalq Elmi Konfransın materialları. – Bakı: – 3-4 may, – 2018, – s. 247-249.

**Tədqiqatın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır**:


1. Hüseynova N.N. Azərbaycan ədəbiyyatında təlxək obrazı və onun tarixi mənşəyi. Təkrarlanan mədəniyyətlərdə prototiplər və ya mədəniyyət genomları // "Müqayisəli ədəbiyyat və mədəniyyət" VII beynəlxalq elmi konfransının tezisləri. Azərbaycan komprativ ədəbiyyat assosasiyası və Xəzər Universiteti. – Bakı: – 20-21 aprel, – 2017, – s.26-27.
2. Hüseynova N.N. "Artıq adam" tipajının formalaşmasında Yevgeni Onegin və Peçorin obrazlarının rolu // – Bakı: Ədəbiyyat məcmuəsi. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, – c. XXI, – 2017, – s. 308-310.
3. Hüseynova N.N. Cəfər Cabbarlı dramaturgiyasında artıq adam obrazı. Poetika.İzm, – 2017. № 3, – s. 162-168.
4. Гусейнова Н. Н. Роль традиций классической восточной литературы в формировании образа «лишнего человека» // Вестник Гуманитарные науки. Дагестанского Государственного Университета. – том 32. –2017, – с. 40-47.
5. Hüseynova N.N. Anarın nəsrində artıq adam obrazı // Bakı Slavyan Universitetinin Ümumilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda IX Beynəlxalq Elmi Konfransın materialları. – Bakı: 3-4 may, – 2018, – s. 247-249.
6. Hüseynova, N.N. "Artıq adam" obrazının folklor qaynaqları //– Bakı: AMEA Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. № 1, – s. 82-86.
7. Hüseynova N.N. Elçinin dramaturgiyasında "artıq adam" obrazı // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri,– 2018. № 1, – s. 109-114.
8. Hüseynova N.N. Sovet ədəbiyyatında artıq adam obrazının daşıyıcıları – "qəribə adam"lar (İlyas Əfəndiyevin yaradıcılığı əsasında) // – Bakı: Poetika.İzm, – 2018. № 4, – s. 62-69.
9. Hüseynova N.N. Cəlil Məmmədquluzadə dramaturgiyasında artıq adam obrazı // Türkiyə Qafqaz Universitetində 15 dekabr 2019-cu

il tarixdə keçirilən "Elm və təhsilin aktual problemləri" beynəlxalq konfransının materialları. – Qars, – Türkiyə, – 2019, – s.87-95.

10. Гусейнова Н.Н. Образы «маленького» человека и «лишнего» человека в литературе XIX века // Балтийский гуманитарный журнал. – 2020, –том 9. № 3 (32), – с.241-246.

Dissertasiyanın müdafiəsi "28" oktyabr 2021-ci il tarixində saat 13³⁰ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı ş., Hüseyn Cavid prospekti. 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "24" sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:   20.09.2021

Kağızın formatı $60_x84$ $^{1/16}$

Həcm: 39364

Tiraj: 100